***Xocalı qətliamı ermənilər tərəfindən qabaqcadan düşünülmüş və məqsədli şəkildə həyata keçirilmişdir. Ermənilərin əsas məqsədi azərbaycanlıların mübarizə əzmini qırmaq və bizi torpaqlarımızın itirilməsi ilə barışmağa məcbur etmək olmuşdur. Bu faciədə qətlə yetirilənlərin xatirəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcək. Hər il fevralın 26-sı minlərlə insanın iştirakı ilə "Ana harayı" abidəsi önündə anım tədbiri keçirilir. Prezident İlham Əliyev bu il yanvarın 28-də Xocalı soyqırımının 30-cu ildönümü haqqında sərəncam imzalamışdır. Sərəncamda Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar tədbirlər planı hazırlanması və həyata keçirilməsinin təmin edilməsi haqqında tapşırıqlar verilmişdir.***

# İnsanlığa qarşı törədilmiş dəhşətli cinayət



1992- ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalı şəhərində soyqırımı aktı törətdilər. Ermənistan silahlı qüvvələri Xankəndi şəhərində yerləşən keçmiş Sovet ordusunun 366-cı alayının köməyi ilə Xocalı şəhərini mühasirəyə alaraq hücuma keçdilər. Dinc, əliyalın əhaliyə misli görünməmiş qəddarlıqla divan tutdular. Canlarını qurtarmaq üçün qaçan əhali pusquya salınaraq qətlə yetirildi və əsir götürüldü. Əhalinin qalan hissəsi qışın ən sərt vaxtında dağlarda donaraq həlak oldu. Xocalı soyqırımı zamanı 106 qadın, 63 uşaq və yaşlı insanlar da olmaqla 613 nəfər amansızlıqla qətlə yetirildi, 1275 sakin girov götürüldü. Həmin dəhşətli gecədə 487 Xocalı sakini şikəst edildi ki, onlardan 76 nəfəri uşaq idi. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi. 56 insan xüsusi qəddarlıqla diri – diri yandırıldı, başları kəsildi, hamilə qadınların qarnına süngü vurularaq öldürüldü.

Xocalı tarixi abidələrlə zəngin, azərbaycanlılara məxsus şəhər idi. Bu şəhər müasir sosial-məişət obyektlərlə yanaşı, XIV-XV əsrə aid çox sayda tarixi abidələrlə də zəngin idi. Erməni barbarları şəhəri yerlə- yeksan etdilər və bu yurdun azərbaycanlılara məxsus olduğunu sübut edən bütün izləri sildilər.

Ulu öndər Heydər Əliyev hər il Xocalı soyqırımı günü dünya ictimaiyyətinə və azərbaycanlılara müraciətində bu dəhşətli cinayət barədə öz qətiyyətli mövqeyini bildirmişdi. Müdrik şəxsiyyət Xocalı soyqırımının 10 illiyi ilə əlaqədar Azərbaycan xalqına müraciətində demişdi: "Bu amansız və qəddar soyqırımı aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu". Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24 də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etdi.

Xocalı soyqırımı XX əsrdə dünyada baş vermiş Holokost, Oradur, Liditsa, Xatın, Sonqmi, Srebrenitsa kimi insanlığa qarşı törədilmiş dəhşətli faciələrlə bir sırada dayanır. BMT Baş Assambleyasının 9 dekabr 1948 -ci il tarixli 260A saylı qətnaməsində insanlığa qarşı törədilmiş hansı cinayətlərin "soyqırımı" anlayışına hüquq verən cinayətlər olması sadalanmışdır. Qətnamədə sadalanan cinayətlər bütünlüklə Xocalı hadisəsində yaşanmışdır.

Prezident İlham Əliyevin apardığı düşünülmüş müdrik və davamlı xarici siyasət nəticəsində bir sıra dövlətlər tərəfindən Xocalı soyqırımı tanınmış və ona siyasi qiymət verilmişdir. Bu vaxta qədər Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası Honduras, İordaniya, Meksika, Pakistan, Panama Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya və Əfqanıstanın qanunverici orqanları tərəfindən müvafiq parlament qətnamələri qəbul edilmişdir. ABŞ-ın 24 ştatı tərəfindən Xocalı soyqırımı tanınıb.

Xocalı soyqırımının beynəlxalq aləmdə tanınması üçün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın əvəzolunmaz xidmətləri var. Belə ki, Leyla xanımın təşəbbüsü ilə 2008-ci ildən beynəlxalq aləmdə "Xocalıya ədalət!" kampaniyasına start verilib. Bu kampaniya çərçivəsində dünyanın müxtəlif ölkələrində konfranslar keçirilir, sərgilər, müsabiqələr təşkil olunur.

Xocalı soyqırımının təşkilatçısı və iştirakçılarından biri olan Ermənistanın keçmiş Prezidenti Serj Sarkisyan müsahibələrində Xocalı soyqırımının ermənilər tərəfindən törədildiyini etiraf etmişdir. 2020-ci il Vətən müharibəsində Azərbaycan Ordusu 30 il işğal altında qalan torpaqlarımızı azad etdi və müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Xocalı qurbanlarının və bütün şəhidlərimizin qisası alındı.

***Kamilə ƏLİYEVA,***
***Milli Məclisin deputatı,***
***BDU-nun kafedra müdiri,***
***professor***